Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"yə dair

Mövqe Sənədi

ADR Partiyası 22.02.2022-ci il tarixdə Moskvada Rusiya Federasiyası Prezidenti V.Putin və Azərbaycan Respublikası Prezidenti İ.Əliyev tərəfindən imzalanmış "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"ni (bundan sonra Bəyannamə) Azərbaycanın xarici siyasət, təhlükəsizlik, iqtisadi və hərbi münasibətlərlə bağl müstəqil dövlət siyasəti yeritməsinə baryerlər yaradan, Rusiyanın maraqlarına xidmət edən, Şuşa Bəyannaməsinə qarşı olan, Ukrayna böhranı ilə bağlı yaranmış beynəlxalq situasiyada ölkəmizə utanc gətirən sənəd kimi qiymətləndirir.

Bütün tərəqqipərvər və demokratik qərbin Ukraynanın müdafiəsində olduğü bir zamanda Azərbaycanın təcavüzkar Rusiyaya dəstək verməsi, onun aciz müttəfiqinə çevrilməsi faktı ciddi narahatlıq yaradır.

ADR Partiyası hesab edir ki, bu Bəyannamə Azərbaycan Respublikası Konstitutsiyasına və ölkənin tərəfdar çıxdığı, üzv olaraq indiyədək imzaladığı və ratifiksiya etdiyi beynəlxalq saziş və konvensiyalarda götürdüyü öhdəliklərlə ziddiyyət təşkil edir.

ADR Partiyası bu Bəyannamədə iki ölkənin aktual beynəlxalq problemlər, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə BMT, ATƏT, MDB, digər beynəlxalq təşkilat və forumlar çərçivəsində eyni və ya yaxın mövqelər tutmaqla qarşılıqlı fəaliyyət göstərməsini, sabitlik və təhlükəsizliyin təmin edilməsi məqsədilə hər iki ölkənin xarici işlər nazirlikləri xətti ilə daimi fəaliyyət göstərən məsləhətləşmələr mexanizmini yaradılmasını Azərbaycan dövlətinin Konstitutsiyasına və müstəqil xarici siyasət doktrinasına zidd hesab edir.

ADR Partiyası bu Bəyannamədə ölkələrdən birinin fikrincə sülhə təhlükə yarada bilən, sülhü pozan və ya tərəflərdən birinin təhlükəsizlik maraqlarına təsir edən vəziyyət yarandığı, eləcə də bu cür vəziyyətin yaranması təhdidi olduğu təqdirdə onun nizamlanması məqsədilə təxirəsalınmaz məsləhətləşmələrin aparılmasının, eləcə də Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alınmasının ifadə edilməsini, Qazaxıstan təcrübəsinin acı nəticələrini nəzərə alaraq, Rusiyanın Azərbaycana qoşun yeritməsinə şəraitin yaradılması və dövlət suverenliyinin məhdudlaşdırılması kimi qiymətləndirir.

ADR Partiyası bu Bəyannamənin 8-ci bəndində Azərbaycan tərəfinin 2020-ci ilin noyabr ayında regionda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasında Rusiya Federasiyasının vasitəçilik rolunu yüksək qiymətləndirməsi Rusiyanın "sülhməramlı" adı altında Dağlıq Qarabağı işğal etməsinə haqq qazandırılması kimi dəyərləndirir.

ADR Partiyası bu Bəyannamədə müasir silah və hərbi texnika ilə təchiz olunma məsələləri, eləcə də bu sahədə qarşılıqlı maraq doğuran digər istiqamətlər, silahlar və hərbi texnika üçün texniki xidmət, təmir, müasirləşdirmə üzrə xidmət mərkəzlərinin yaradılması, eləcə də hərbi təyinatlı məhsulların müxtəlif növlərinin birgə istehsalının təşkili üzrə səylərini fəallaşdırmasını Azərbaycanın Rusiyadan silah alması öhdəliyinin yaradılması və ölkəmizə qarşı hərbi təzyiq vasitəsi kimi istifadə ediləcəyini qeyd etməklə yanaşı Bəyannamədə təsbit olunan "tərəflər üçüncü dövlətlər vasitəsilə həyata keçirilənlər də daxil olmaqla bir-birinə qarşı yönəlmiş hər hansı hərəkətlərdən çəkinirlər" müddəasını Türkiyə-Azərbaycan hərbi və siyasi əməkdaşlığının inkişaf etdirilməsinə maneə kimi qiymətləndirir.

ADR Partiyası bu Bəyannamədə Rusiya Federasiyası və Azərbaycan Respublikası arasşnda qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətini müsbət qiymətləndirsə də, bu istiqamətdə nəzərdə tutulan müddəaların iki ölkə arasında indiyədək imzalanmış sənədlərdə öz əksini tapdığını qeyd edir.

Yekun olaraq, ADR Partiyası bu Bəyannaməni Azərbaycanın sivil dünyadan uzaqlaşdırılması, suveren dövlət hüquqlarının məhdudlaşdırılması, ölkəmizin daxili işlərinə müdaxilə yolu ilə hakimiyyətin Rusiyadan asılı vəziyyətə salınması aktı kimi qiymətləndirir və bunun xalqa xəyanət olduğunu bəyan edir.

ADR Partiyası hesab edir ki, Moskva Bəyannaməsinin huquqi qüvvəyə minməsi ölkəmizi yaxın gələcəkdə Rusiyadan tam asılı fedarasiya subyekti səviyyəsinə qədər aşağılanmaq təhlükəsilə üz-üzə qoya bilər. Bu hal Azərbaycanın beynəxalq arenada nüfuzunun daha da itirilməsinə, Avropa Birliyi Şərq Tərəfdaşlığı Proqramında mövqeyinin zəifləməsinə, Aİ ilə Strateji Əməkdalıq Sazişinin imzalanmasının ləngiməsinə gətirib çıxaracağını qeyd etməklə bərabər bu bəyannaməyə qətiyyətlə etirazını bildirir və Milli Məclisi bu sənədi ratifikasiya etməməyə çağırır.